

# Məni tanımayan dünyaya bir də gələn deyiləm

## (66 yaşımın monoloqu)

Bu da mənim ad günüm!

Bir oktyabr. 1953-cü ilin payızı. Bu, sənəddə yazılandır. Atamın dediyinə görə, payızdan on dörd gün qalmış, səhər çağı işıqlığa gəlmişəm. Anam da təsdiq edir, günü dəqiq tutmasa da.

Hər halda, dekabr ayının yeddisi... Həmin səhər çağında alaçalxov qar da varmış. Mənim ilk səsimdən, çığırtımdan sonra hava açılıb. Demirəm ki, havanın açılmağı elə mənim haray-həşirimdən asılı olub.

Bəlkə də, bir tale qismətidir, atamdan-anamdan eşitdiyim o hava əhvalatını yaddaşımın diktəsi ilə, həm də həyatımın, ömrümün bir rəngi kimi varlığımda gəzdirmişəm.

Kimi tutqun görsəm, kimin əhvalını pərişan görsəm onun ruhuna, təbiətinə istilik, aydınlıq, işıq vermək istəmişəm.

Deməzdim ki, mənim başımın üstündə hava həmişə açıq olub. Taleyimin üstündə dolanan qara buludlarla zaman-zaman, on illiklərlə döyüşə-döyüşə, vuruşa-vuruşa gəlib yaşımın indiki çağına yetmişəm.

Atam həmişə deyirdi ki, Tanrı bir ömürdə insanı iki dəfə buraxır. Yəni ona iki dəfə imkan şansı verir. Üç paya bölünən insan ömrü bu şansı əzəlində-axırında, əzəlində-ortasında, ya da ortasında-axırında ala bilər. Kim bu şansdan necə yararlanır? O baxır hər kəsin ağlına, fərasətinə, düşdüyü şəraiti qiymətləndirmə bacarığına... nə bilim, bəlkə də, bəxtinə...

Ömrümün ən qaynar çağları düşüncələrdəki çaxnaşma dövrünə düşdü. Ziddiyyətlər, yanılmalar, büdrəmələr, səhvlər, nəticə çıxatmaq naminə cəhdlər...

Hər halda zəhmətdən çəkinmədim. Əgər odu gözlərimlə götürməyə məcbur idimsə, buna da gücüm çatdı.

Tanrının verdiyi istedadı çoxlarının dediyi kimi, israfla dağıtmaq istəməsəm də, bunsuz da işim getmədi. Sözümün hərarətilə sözündə işıq olmayana da ümid vermək istədim.

Dostlarım gur dövrümü də gördü, dağılıb gedən çağımı da...

Ən çox ağrı-acı çəkdiyim «doğma yağılar» oldu. Hardan gəldi zərbələrini vurmağa çəkinmədilər. Ən zəif doğma asanlıqla yaralaya bilir. Çünki o, zəif yeri yaxşı bilir; hardan vursa, daha ağır yaralayar.

İnsanlar heç nəyi əvəzsiz buraxmır. Nə etmisənsə, hamısının əvəzini qaytarır. Təəssüf ki, xeyirxahlığın kəmiyyəti, keyfiyyəti qədərindən artıq olanda və əvəzini qaytara bilməyəndə... yamanlıqla əvəz ödəyirlər. Bəli, bu da əndazədən çıxan xeyirxahlığın əvəzi, bəhrəsi...

Deməzdim ki, mühitimdən tam razıyam. Yaşadığım zamanın indiki çağını çox ədalətli görmək istəyərdim. Təəssüf ki, bu ədalət deyilən nədirsə, onun dili o qədər qəlizdir ki, anlamaq olmur.

*(Davamı 9-cu səhifədə)*

*(Əvvəli 1-ci səhifədə)*

Bilirəm ki, çox şeyə haqqım var. Amma nə olsun, hər kəs közü özünün olmasa da, özününkünün qabağına çəkir. Xüsusilə, nadanların arasında həmişə havasızlıq var. Və bu havasızlığın əzabını da hər vaxt çəkməli oldum.

Hələ beşinci sinifdə oxuyanda rayon qəzetində dərc olunan yazımın başlığı idi: "Boranla üz-üzə".

Dünən yüzlərlə adıma gələn təbriklər ruhuma narın yağış çilədi. Elə bil ki, bu yağış havanı bir az da açdı. bəlkə də, bu qeydlər heç yazılmayacaqdı. Payız yağışından sonra qalxan güzdək kimi sözlər təbiətimdən boy verdi. Gördüm ki, çəmən-çəmən ruhumu oxşayır. Deyirəm ki, tələsməyim, təbriklərim günü qurtarmır, yeddi dekabra qədər vaxtı var. Gecikənlər, unudan dostlar üçün də beləcə ömrümün hələ qalan günləri yön görər. Amma onu deyirəm ki, mən sizinləyəm. Bir çoxlarınız mənimlə olmasanız da.

İrandan, Türkiyədən, Avropa ölkələrindən, məni şəxsən tanıyan, tanımayan bir çoxları yazdı. Ancaq iki təbrik məni xüsusilə təsirləndirdi. Amerikada yaşayan azərbaycanlı professorlar - Azər və Anar Əhmədov qardaşları. Bunlar bizim Xələflinin yetirmələridir. Hələ çiçəkburnu olanda istedadlarının işığı ilə Amerikaya gedib çıxıblar. İstedad onların tükənməyən sərvəti, imkanlı dayıları, əmiləri olub.

Bir daha inandım ki, istedad və zəhmət ağıl işığında insanı Allahın da yanına çıxara bilər.

Azərin yazısını "Kredo"nun üzündə vermişəm. Cavab üçün iki-üç cümlə yadım: "Çox təsirləndim... Sən mənə "görükən adam" deyirsən. Axı təkcə görükmək şərt deyil. Görən, görə bilən də olmalıdır ki, görükəni görsün".

Əziz dostlar, ötən bir ildə sözümdən, dilimdən incik düşən olubsa, bağışlasın.

Mənə qarşı haqsız olanları isə... bağışladım, lap çətin olsa da. Axır ki, bağışladım. Xüsusilə, haqqımı görməzliyə vuranları.

Taleyin məndən qopardığı dostların ağrısı mənimlədir. Sahib Abdullayevi, Sahib Əhmədovu, Sabir Bəşirovu necə unudum? Amma hələ ki, həyatda olanlar var. Özləri məni məcbur edir ki, onları unudum. Bu da çətindir. İllər boyu, zaman-zaman bir yerdə yol gələsən, nəhayət, bir gün görəsən ki, necə ustalıqla gözlərinin önündən yox olur. Bu da bir cür ağrıdır.

Ağrılarımın tərəfi çoxdur. Ən çox ləyaqətsiz adamların yarınmaq davranışı qədər gördüyümdə betər ağrım yoxdur.

Bəli, ləyaqətsizlik libasında olanları isə... Tanrının ixtiyarına buraxdım. Bəlkə, Tanrının kərəmindən özləri nə isə qana bildilər.

Təbiətimin rəngini görmək istəyənlərə sözümü də qəzetin birinci üzünə çəkmişəm:

Qərəzsizlik, kinsizlik həyatımın əsas rəngidir. Əlbəttə, görə bilən, görmək istəyən olsa!..

Axır ki, ad günü mənim olsa da, bütün təbriklərin hamısını sizə bağışladım. Qoy sevinci bölək!

Bir sözlə, üzü gələcəyə, dostlar!

Mənə qaldıqda isə...

Məni tanımayan dünyaya bir də gələn deyiləm!